Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ məsələsi ilə bağlı pərdə arxasında maraqlı proseslər başlanıb

**Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Cenevrədə baş tutan məlum görüşdən sonra Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində hansı dəyişikliklərin baş verəcəyi ən aktual müzakirə mövzularından biri olaraq qalır. Görüşlə bağlı müxtəlif rakursdan kifayət qədər maraqlı fikirlər də səslənir.**

Hətta bəzi ekspertlər bildirir ki, Cenevrə danışıqlarından sonra Qarabağ konfliktinin sülh müstəvisində həlli istiqamətində əməli addımlar da atıla bilər.

Düzdür, rəsmi məlumatların azlığı, məxfilik prinsipinin qorunması hazırda danışıqlar masasında hansı istiqamətdə müzakirələrin aparıldığını tam təsəvvür etməyə imkan vermir. Amma yenə elə həmin rəsmi məlumatlardan çıxan nəticələr, eləcə də müxtəlif mənbələrdən daxil olan məlumatlar, ekspert rəyləri proses barədə müəyyən mülahizələr də yürütməyə əsas verir. Bu mülahizələr, əslində Qarabağ münaqişəsi ətrafında kifayət qədər intensiv müzakirələrə start verildiyini də deməyə əsas verir. Məsələ ilə bağlı rusiyalı politoloq Stanislav Tarasova görə, Cenevrədə 11 saatlıq danışıqlar o deməkdir ki, dialoq üçün predmet var, masa üzərində ssenari mövcuddur: "Qarabağ konflikti ilə bağlı danışıqlar prosesində artıq dəyişiklik var. Əminəm ki, müzakirə olunan sənəd layihəsi mövcuddur. Bununla bağlı tərəflər heç nə açıqlamır və məxfilik prinsipinə əməl edirlər. Tərəflər arasında sərt diskussiyalar gedir". Onun sözlərinə görə, Azərbaycanın mövqeyi aydındır: "Bakı birmənalı şəkildə ölkənin ərazi bütövlüyünün bərpa olunmağını istəyir və danışıqlar masası arxasında kompromislər axtarır. Tərəflər qeyd edirlər ki, "Madrid prinsipləri" hüquqi sənəd deyil, onlar danışıqlar üçün əsas kimi qəbul edilib. Azərbaycan və Ermənistan işarə edib ki, "Madrid prinsipləri"ndən razı deyillər, amma istənilən halda onlar bundan imtina etmirlər. Tərəflər danışıqları davam etdirsələr, bu o deməkdir ki, "Madrid prinsipləri"nin modernləşdirilib-modernləşdirilməməsindən asılı olamayaraq, onlar işləyir. Lakin real vəziyyət onu da göstərir ki, Nikol Paşinyan yeni oyun təklif edir. Mən bunu ikili standart adlandırıram və düşünürəm ki, Azərbaycan daha davamlı və dəqiq siyasət yürüdür. İrəvanın mövqeyi isə hələ də anlaşılmazdır".

Digər ekspert Vitali Arkov da hesab edir ki, Azərbaycan və Ermənistan rəsmiləri sadəcə görüş xatirinə bir araya gəlmir:"Son vaxtlar Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüşlər daha tez-tez keçirilir və uzun müddət davam edir. Şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsi kimi mürəkkəb bir problemin həllində hər hansı bir formatda, xüsusən də xarici işlər nazirləri səviyyəsində istənilən danışıqlar vacibdir. Lakin yalnız prosesin özü vacib deyil, eyni zamanda nəticə də əldə etmək lazımdır. ATƏT-in Minsk Qrupu həmsədrlərinin və Azərbaycan tərəfinin sülhün bərqərar olmasında və işğal edilmiş torpaqların qaytarılmasında maraqlı olması da sirr deyil. Lakin erməni tərəfinin danışıqlar prosesini yubatmaq üçün bir çox səbəbi mövcuddur". 2020-ci ildə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində gözləntiləri ilə bağlı sualı cavablandıran ekspert son dövrlərdə dəfələrlə Paşinyanın qondarma "Dağlıq Qarabağ Respublikası"nın rəhbərliyini öz nəzarətində olan insanlarla dəyişmək niyyətində olduğunu eşitdiyini qeyd edib: "Məqsəd regionun Azərbaycana tərkibinə qaytarılmasına əngəl olan səbəbi aradan qaldırmaqdır. Bakı üçün bu nikbin versiyadır. Dağlıq Qarabağda Paşinyan indi tamamilə fərqli vəzifələri həll edir. O, siyasi gələcəyini xilas etməyə çalışır, çünki bölgə uzun müddət ölkəni idarə edən və bu gün ən güclü və təhlükəli müxalif qüvvə olan, erməni siyasətində "Qarabağ klanı" adlandırılan klanın dayağı hesab olunur. Bu klan, hətta liderinin - keçmiş prezident Robert Köçəryanın həbsinə və digər keçmiş prezident Serj Sarkisyanın cinayət təqibi altında olmasına baxmayaraq belə də qalır. İkinci və ən vacib şey. Dağlıq Qarabağın Azərbaycana qaytarılmasına Köçəryan-Sarkisyan komandasının üzvləri qarşı çıxır. Bu, uzun illər davam edən təbliğatın nəticəsidir və yalnız Dağlıq Qarabağdakı rəhbər işçiləri əvəzləməklə vəziyyəti dəyişmək mümkün deyil. Buna baxmayaraq, bu gün həqiqətən də Azərbaycanın işğal olunmuş yeddi rayonunun Bakıya qaytarılması, Ermənistanın blokadasının zəifləməsi və iki ölkənin əhalisini dinc qonşuluğa yaxınlaşdıran layihənin intensivləşməsi barədə həqiqətən danışa bilərik". Nikol Paşinyanın Dağlıq Qarabağın danışıqlarda üçüncü tərəf kimi iştirakı ilə bağlı fikirlərinə münasibət bildirən Vitali Arkov qeyd edib ki, bu, yalnız bölgəni tərk etməyə məcbur edilmiş azərbaycanlıların qayıtmasından sonra mümkün ola bilər. Ekspert sülhün bərqərar olmasında Rusiyanın indi xüsusi maraqlı tərəf olduğunu və mövqeyini Bakı ilə daha çox yaxınlaşdırdığını da vurğulayır.

Əslində, rəsmi məlumatlar da ekspertin dediklərini istisna etmir. Rəsmi Bakı da ümid edir ki, Rusiya indiyə qədər Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində göstərdiyi səyləri daha da artıracaq. Çünki Rusiyanın Ermənistan üzərində təsiri hələ də həddən artıq çoxdur. Moskva, faktiki olaraq, Ermənistanın bütün siyasi, iqtisadi, sosial, hərbi, təhlükəsizlik, geosiyasi məsələlərində mühüm təsir qüvvələrinə malikdir və bu ölkə Ermənistana təsirli təzyiq göstərməklə bu ölkəni konstruktiv istiqamətə yönəldə bilər. Elə bu fonda Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenkonun RİA "Novosti" agentliyinə müsahibəsində səsləndirdiyi fikirlər diqqətdən yayınmır. Nazir müavini qeyd edir ki, Rusiya hər zaman Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında aktiv vasitəçi mövqeyi tutub. Onun sözlərinə görə, həlli gecikmiş münaqişənin nizamlanmasında tərəflərə köməklik göstərmək Rusiyanın xarici siyasət prioritetləri sırasındadır:

"Qarabağ mövzusu Rusiya prezidentinin, xarici işlər nazirinin diqqət mərkəzində qalır. Bu hal davam edən vasitəçilik fəaliyyətinə xüsusi əhəmiyyət verir və bu fəaliyyətin nəticələrinə artan diqqəti müəyyənləşdirir. Rusiyanın birbaşa köməyi ilə imzalanan sənədlər arasında hələ də atəşkəs üçün əsas olan 1994-cü il Atəşkəs Sazişi var. Ölkəmizin vasitəçilik səylərindəki vacib mərhələ 2008-ci ildə Moskva Bəyannaməsinin qəbul edilməsi oldu, hansı ki, bu sənəddə Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla həllindən bəhs olunur. Bu, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair Azərbaycan və Ermənistan liderləri tərəfindən imzalanan ilk və bu günə qədər yeganə sənəddir. Bildiyiniz kimi, Rusiya Azərbaycan və Ermənistanın Baş Qərargah rəislərini Moskvaya dəvət etməklə, 2016-cı ildə genişmiqyaslı hərbi əməliyyatların başa çatmasında da həlledici rol oynadı". Rudenko ölkəsinin fransalı və amerikalı tərəfdaşları ilə sıx təmasda vasitəçilik missiyasını həyata keçirdiyini də xatırladıb: "Ötən ilin aprel ayında Moskvada Sergey Lavrov tərəfindən həmsədrlərin iştirakı ilə Azərbaycan və Ermənistan XİN başçılarının görüşü təşkil olunub. Görüşdə keçən il Vyanada İlham Əliyev və Nikol Paşinyan arasında əldə edilmiş razılaşmaların işlənib hazırlanması zamanı danışıqlar prosesinin yenidən başlamasına şərait yaradan konkret təkliflər ortaya qoyulub. Bunlar arasında münaqişə zonasında vəziyyətin daha da sabitləşməsi, tərəflərin ərazisində saxlanılan şəxslərin taleyinin asanlaşdırılması tədbirləri var. Media nümayəndələrinin qarşılıqlı səfərləri barədə razılığa gəlinib, nizamlanmanın bəzi əsas məsələlərinə baxılıb. Bu təkliflərin bir qismi həyata keçirilib. Sərhəddə və təmas xəttində vəziyyət nisbətən sakit olaraq qalır. İrəvanla Bakı arasında rabitə xətti var. Jurnalistlərin qarşılıqlı səfərləri həyata keçirilib. Əsirlikdə olan Zaven Karapetyan və Elvin İbrahimov geri qaytarılıb. Digər məhkumlarla bağlı iş davam edir. Beynəlxalq Qırmızı Xaç Komitəsi bu prosesə cəlb olunub. İnanırıq ki, bütün bunlar tərəflərin əhalini sülhə hazırlamağa yönəlmiş konkret addımlar atmaq niyyətindən xəbər verir. Bu, xüsusilə Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Cenevrədəki son iclasında da müzakirə edilib. Tərəflər güzəşt həlli axtarışlarını davam etdirməyə hazır olduqlarını bəyan edirlər. Bu münasibəti dəstəkləyirik. İşin davam etməsi üçün əsas var. Əsas siyasi iradə nümayiş etdirməkdir".

Ekspertlər də hesab edir ki, Moskvanın prosesə fəal müdaxiləsi mühüm yeniliklərə gətirib çıxara bilər. Elə Cenevrə görüşündə də Rusiyanın fəallığı barədə müəyyən məlumatlar səslənir.

Digər tərəfdən ekspertlər bildirir ki, indiyə qədər Qarabağ konfliktinin donmuş vəziyyətdə qalması Rusiyaya sərf edirdi. Yəni Rusiya üçün bu status-kvo həm Ermənistanı, həm də Azərbaycanı nəzarətdə saxlamağa imkan verirdi. İndi isə situasiya dəyişib. O mənada ki, Ermənistanda hakimiyyətdə Rusiyaya münasib olmayan qüvvələrdir. Hətta indi Ermənistanda ölkənin NATO-ya qoşulmasından danışılır. Gürcüstanın ardınca Ermənistanın belə bir addım atması Kreml üçün qətiyyən qəbuledilməzdir. Məhz belə olan halda, Dağlıq Qarabağla bağlı mövcud status-kvo Moskvanın maraqlarına daha əvvəlki kimi cavab vermir. Uzun illər vəziyyətin belə qalması Rusiyanın Cənubi Qafqazla bağlı maraqlarına bundan sonra mənfi təsir edəcək. Ona görə də Rusiya bölgədə maraqlarını bundan sonra da qorumaq istəyirsə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı real addımlar atmalı olduğunu yaxşı bilir. Bu onun regionda mövqelərinin qorunması baxımından da vacibdir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**